Azərbaycan Respublikasının Səfirliyi
Cakarta

Jl. Mas Putih Blok D Persil 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel. : 549 19 39
Fax : 549 17 45
E-mail: azerbembjkt@link.net.id

Azərbaycan Respublikasının Səfirliyi İndoneziya Respublikasının Xarici İşlər Departamentinə, Cakartadakı Diplomatik, Konsulluq və BMT-nin Missiyalarına, ASEAN Katibliyinə və Avropa Birliyinin Nümayəndəliyinə Nota ilə Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov və Azərbaycan Respublikasının ATƏT yanında Daimi Nümayəndəsinin 1949-cu il Cenevrə Konvensiyasına və ona əlavə protokollara zidd olaraq Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində ətraf mühitin məhv edilməsi ilə nəticələnən hərəkətləri barədə Bəyanatlarını göndərmişdir.

Bəyanatlarda Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı işğalının işğal altında olan ərazilərə mənfi təsir göstərdiyi, Ağdam və Xocavənd rayonlarında ermənilər tərəfindən məqsədyönlü yanğınların həyata keçirildiyi pislənilir, kənd təsərrüfatı üçün yararlı əkin sahələri, mədəni və tarixi adidələr, flora və fauna nümunələri və yaşayış yerləri olan 132,2 $km^2$ ərazilərin yanğınlar nəticəsində məhv edildiyi bildirilir, beynəlxalq birliyə müraciət olunaraq Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərində həyata keçirdiyi məqsədyönlü cinayətlərinə qarşı yekdil mövqe tutmaq xahiş olunur.

29 iyun 2006-cı il